# Gənclik gələcəkdir, inkişafdır, tərəqqidir

## Onların işgüzarlığına, vətənpərvərliyinə və intellektinə əminlik ifadə edən ölkə başçısı yeni başlayan postneft dövründə gəncləri daha fəal olmağa çağırır



**Müstəqil Azərbaycanın gənclər siyasətinin formalaşmasında təbii ki, ulu öndər Heydər Əliyevin əvəzsiz xidmətləri vardır. Ümummilli Lider xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edirdi. Dahi şəxsiyyət gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan etmişdi.**

Bu məqsədlə Azərbaycan Prezidentinin Fərmanı ilə 1994-cü il iyulun 26-da Gənclər, İdman və Turizm Nazirliyi yaradılmış, 1995-ci ildə isə Azərbaycan gənclərinin forumunun keçirilməsi təşəbbüsü irəli sürülmüşdü. Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və öz problemlərinin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək, paytaxt və regionlarda yaşayan gənclərin fikir mübadiləsinə şərait yaratmaq, gənclər və dövlət qurumları, hökumət nümayəndələri ilə açıq ünsiyyəti asanlaşdırmaq məqsədilə 2 fevral 1996-cı ildə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirilmişdir. 1997-ci il fevralın 1-də Ümummilli Lider 2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında Sərəncam imzalamış və həmin vaxtdan etibarən ənənəvi olaraq hər il 2 fevral günü Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur.

Bu gün isə müstəqil Azərbaycanda müasir gənclər ordusu formalaşıb. Möhtərəm Prezidentimiz İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə gənclər siyasəti yeni mərhələyə qədəm qoyub. Bu da gənclərimizdən zamanın tələblərinə uyğun olaraq daha kreativ, daha innovativ olmağı tələb edir. Dövlət başçısının həyata keçirdiyi siyasi kursu dəstəkləyən minlərlə gənc müxtəlif təşkilat və birliklərdə fəaliyyət göstərərək dövlətə və dövlətçiliyə öz töhfələrini verməklə məşğuldurlar. Bu gün ölkəmizdə 300-dən çox gənclər təşkilatı 30-dan çox beynəlxalq platformada təmsil olunur.

Hazırda 667 min nəfər üzvü olan Yeni Azərbaycan Partiyası üzvlərinin 40 faizini gənclər təşkil edir. Bu, sadəcə rəqəm deyil, gənclərin Heydər Əliyev ideyalarına, Prezident İlham Əliyevin siyasətinə və dövlətçiliyə sədaqətinin ifadəsidir.

Azərbaycan gəncləri ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edir və mühüm rol oynayır. Gənclərimiz I Avropa Oyunlarına dəstək məqsədilə müxtəlif tədbirlər həyata keçirmişlər. Təşkil edilən tədbirlərdə gənclərə Avropa Oyunlarının mahiyyəti və əhəmiyyəti haqqında məlumat verilmiş, təbliğat işi aparılmışdır. Ötən il Azərbaycanda növbəti parlament seçkiləri keçirildi. Yeni Azərbaycan Partiyası seçki prosesini uğurla həyata keçirdi. Seçkilər ərəfəsində partiya tərəfindən irəli sürülmüş namizədlərin təbliğat-təşviqat prosesində partiyanın Gənclər Birliyinin üzvləri xüsusi aktivliyi ilə seçildilər. Seçki kampaniyası ərəfəsində Gənclər Birliyinin üzvləri partiya rəhbərliyinin verdiyi bütün tapşırıqları yerinə yetirərək həm müşahidəçi, həm namizədlərin təbliğatçısı, həm də seçki qərargahının üzvü kimi seçkilərdə iştirak etdilər. Parlament seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş namizədlərin böyük əksəriyyəti qələbə qazandı ki, bu da xalqımızın dövlət başçısına, YAP-a inamından irəli gəlir.

Bu gün gənclərə göstərilən diqqət və qayğı məsələsində Azərbaycan Avropa ölkələrinin bir çoxunu üstələyir. Hazırda Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu, Gənclər və İdman Nazirliyi vasitəsilə gənclərlə bağlı qeyri-hökumət təşkilatlarının təşəbbüslərinin reallaşdırılması məhz yeni məzmunda həyata keçirilən siyasətin məntiqi nəticəsidir.

Ölkə Prezidenti hər zaman gənclərə diqqət və qayğı göstərir, onların çağırışlarına müsbət cavab verir. Bu, yanvarın 29-da Prezident İlham Əliyevin Azərbaycan Gənclərinin Birinci Forumunun 20 illiyi münasibətilə ölkə gənclərinin bir qrupu ilə görüşündə bir daha təsdiqini tapdı. Görüşdə dövlət başçısı vurğuladı ki, dövlət gənclərə hər zaman dəstək olub və bundan sonra da bu dəstək davam etdiriləcək. Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı ildə keçirilən ilk forumun Azərbaycanda gənclər siyasətinin müəyyənləşməsində mühüm rol oynadığını diqqətə çatdırdı: “Biz Azərbaycanda güclü, özünə güvənən dövlət qururuq və bu dövlət əbədi yaşamalıdır” deyən Prezident İlham Əliyev son 20 ili inkişaf və sabitlik dövrü kimi xarakterizə etdi, Azərbaycanın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasında təmsil olunduğunu, mühüm enerji layihələrini icra etdiyini, kosmik ölkəyə çevrildiyini, iqtisadi şaxələndirilmənin aparıldığını, elmin və təhsilin inkişafı ilə bağlı mühüm addımların atıldığını, güclü ordunun və güclü sosial siyasətin qurulduğunu vurğuladı.

Hazırda iqtisadi sahədə ciddi islahatların aparılmasına böyük ehtiyac olduğunu vurğulayan dövlət başçısı bildirdi ki, gələcək illər innovasiya dövrü olacaq və əsas sözü texnologiyalar deyəcək. Buna görə də neftdən asılılıq tamamilə aradan qaldırılmalı, gənclər də cəmiyyətin bütün işlərində fəallıq nümayiş etdirməlidirlər. Gənclərin cəmiyyətimizin fəal üzvləri kimi ölkəmizin güclənməsində əsas rol oynadığını qeyd edən Prezident onların fəaliyyətini yüksək qiymətləndirdi: “Həm beynəlxalq müstəvidə, həm ölkə daxilində mən görürəm ki, bu gün böyüyən gənclər xalqa, dövlətə bağlıdırlar. Bu, çox önəmlidir. Gənclər gərək milli ruhda tərbiyə alsınlar. Biz milli dəyərlərimizi hər şeydən üstün tutmalıyıq. Hətta sovet dövründə dilimizi, adət-ənənələrimizi, bayramlarımızı qorumuşuq. Siz gənclər gələcəkdə ölkəmizi idarə edəcəksiniz. Ölkəmizin taleyi sizdən asılı olacaqdır. Ona görə sizin fəaliyyətiniz, baxışlarınız və fikirləriniz gələcəkdə ölkəmiz üçün həlledici olacaq”.

Dövlət başçısı həmçinin gənclərə öz tövsiyələrini də verdi. Bildirdi ki, gənclər milli ruhda böyüyəndə, əlbəttə, xarici təsirin heç bir əhəmiyyəti olmayacaq. Ona görə də vətənpərvərliyi, milli dəyərləri, ənənələri yüksək formada qorumalıyıq: “Bugünkü Azərbaycan iqtidarı bu sahəyə çox böyük diqqət göstərir. Elə etməliyik ki, bu proses davamlı olsun. Bizdən sonra hakimiyyətə gələn nəsil də bu amalla yaşasın: dövlətçilik, milli maraqlar, azərbaycançılıq, ləyaqət və güclü dövlət”.

Qeyd edək ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev ölkəmizin qarşısında duran yeni qlobal vəzifələrin həllində gəncliyə çox güvənir. Onların işgüzarlığına, vətənpərvərliyinə və yüksək intellektinə arxayınlaşan ölkə başçısı yeni başlayan postneft dövründə ölkəmizin yeni işıqlı hədəflərə qısa müddətdə çatacağına əmindir.

Gənclik gələcəkdir, inkişafdır, tərəqqidir. Gənclər hər bir ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi, mədəni, humanitar həyatında mühüm rola malik potensial qüvvə kimi vacib yer tuturlar. Aktiv və avanqard qüvvə kimi gənclər ölkə həyatının bütün sahələrində öncül yer tutmaqla yüksək hədəflərə çatmağa zəmin yaradan zəngin bazadır. Bu bazadan səmərəli şəkildə istifadə edən dövlətlər həmişə lider olmağı bacarıblar.

**Elçin Zaman,**
***“İki sahil”***